**AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ**
**BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

№ 137 "09" iyun 2022-ci il

**Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupunun yaradılması haqqında**

Azərbaycan Respublikasında uşaqların müdafiəsi və inkişafı, onların hüquqlarının qorunması dövlətin sosial siyasətində mühüm yer tutur. Azərbaycan Respublikasının dövlət uşaq siyasətinin əsas prinsipləri sırasında uşaqların hərtərəfli qayğı ilə əhatə olunması, şəxsiyyət və layiqli vətəndaş kimi formalaşması, sağlam böyüməsi, onların baxımsızlığı hallarının aradan qaldırılması, valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsinin təmin edilməsi xüsusi əhəmiyyət daşıyır, qeyd olunan prinsiplər əsas tutularaq bu sahədə görülən tədbirlərin davamlılığı təmin edilir.

Qeyd olunanlarla yanaşı təcrübə göstərir ki, rayon ərazisində aşkar edilmiş sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar barədə Binəqədi Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyaya məlumatlar gec daxil olduğundan və yaxud ümumiyyətlə daxil olmadığından onların hüquqlarının və qanuni maraqlarının qorunmasında çətinliklər yaranır.

Göstərilənlərə əsasən sözügedən kateqoriyadan olan yetkinlik yaşına çatmayanların hüquq və mənafelərinin daha səmərəli qorunması üçün çevik həll mexanizminin yaradılmasına və aidiyyəti qurumlar arasında koordinasiyanın təmin edilməsinə zərurət yaranmışdır.

Yuxarıda qeyd olunanları, Azərbaycan Respublikasının 31.05.2002-ci il tarixli 336-IIQ saylı Qanunu ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə"nin 1-ci maddəsini, "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" 24.05.2005-ci il tarixli 919-IIQ saylı Azərbaycan Respublikası Qanununun 9.0.3-cü maddəsini, Azərbaycan Respublikası Nazirlər

| | |
|---|---|
| Adıgözəlov Cəfər Şükür oğlu | Binəqədi RPİ-nin 43-cü PB-nin YYÇ işləri üzrə inspektoru, polis mayoru |
| Ağazadə Kəmalə Yusif qızı | "Azərbaycan Uşaqları" İctimai Birliyinin sədri |
| Zeynalova Mehriban Heydərəli qızı | "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri |

**3.** Monitorinq qrupunun fəaliyyətinə nəzarətin həyata keçirilməsi Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**4.** Binəqədi Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya tərəfindən monitorinq qrupunun fəaliyyətinin operativliyi təmin edilsin.

**5.** Sərəncamın surətinin monitorinq qrupunun üzvlərinə göndərilməsinin təmin edilməsi Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Kabinetinin 31.10.2003-cü il tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 2.19-cu bəndini, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 51-ci maddəsini və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.13.1-ci, 4.6.3-cü, 4.13.1-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq,

**QƏRARA ALIRAM:**

**1.** Bakı şəhəri Binəqədi rayonu üzrə "Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupu" yaradılsın.

**2.** "Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupu"nun tərkibi aşağıdakı qaydada təsdiq edilsin:

**Monitorinq qrupunun sədri:**

| | |
|---|---|
| Süleymanova Sevinc Məhəmməd qızı | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini |

**Monitorinq qrupunun kordinatoru:**

| | |
|---|---|
| Abbasova Aynur Nəsrəddin qızı | Binəqədi Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi |

**Monitorinq qrupunun üzvləri:**

| | |
|---|---|
| Əliyev Orxan Elşən oğlu | Binəqədi Rayon İcra Hakimiyyəti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu |
| Əliyev Elxan Etibar oğlu | Binəqədi RPİ-nin İTŞ-nin YYÇPİTB-nin inspektoru, polis mayoru |
| Seyidov Tural Mir Ələkbər oğlu | Binəqədi RPİ-nin 4-cü PŞ-nin YYÇ işləri üzrə baş inspektoru, polis mayoru |
| Quliyev Elvin Abdulhəsən oğlu | Binəqədi RPİ-nin 5-ci PB-nin YYÇ işləri üzrə baş inspektoru, polis mayoru |
| Şərifov Kamil Əliş oğlu | Binəqədi RPİ-nin 7-ci PB-nin YYÇ işləri üzrə baş inspektoru, polis mayoru |